


# "Formula-1" dünya mətbuatında




Türkiyənin aparıcı kütləvi informasiya vasitələri Bakıda keçirilən "Formula-1" Avropa Qran-pri yarışını geniş işıqlandırıb.

Anadolu Agentliyi, "Milliyyət" qəzeti, "Habertürk", "Eurosport" və digər xəbər portalları yarış haqqında operativ məlumatlar yayıb. Həmçinin oxucular qalib idmançılar barədə məlumatlandırılıb.

Yarış başlayandan etibarən bir sıra kütləvi informasiya vasitələrində "Bakıda "Formula-1" həyəcanı" sərlövhəsi ilə xəbərlər manşet materialı olub.

* * *




"Rossiya 24" kanalı Bakıda keçirilmiş "Formula-1" Avropa Qran-prisinə dair maraqlı reportaj hazırlayıb.

Telekanalın müxbiri Pavel Melnikovun reportajında yarışların Bakı mərhələsinin yüksək səviyyədə təşkil edildiyi, şəhər trasının bütün standartlara cavab verdiyi vurğulanıb. Qeyd olunub ki, təşkilatçılar qədim Bakının füsunkar memarlıq nümunələrinin qorunmasına xüsusi diqqətlə yanaşıblar. Qız qalasının və İçərişəhərin divarlarının zədələnməməsi üçün güclü mühafizə işləri görülüb, trek dəmir və beton hasarlarla əhatə olunub.

Süjetdə bütün dünyadan Bakıya üz tutan 30 mindən çox turistin azərbaycanlılara xas qonaqpərvərliklə qarşılandığı qeyd edilib. Müxbirin fikirlərini öyrəndiyi avropalı turistlər Azərbaycan mətbəxinin ləziz nümunələrini məmnuniyyətlə daddıqlarını söyləyiblər. Yarışlara tamaşa etmək üçün Bakıya yola düşməzdən əvvəl ölkəmiz haqqında məlumatlar əldə etdiyini, milli mətbəximizlə maraqlandığını bildirən britaniyalı turistin "Düşbərə gözlədiyimdən də dadlı idi" sözləri, fransalı azarkeşin isə belə ləzzətli dolmanı hələ heç yerdə dadmadığını söyləməsi reportajda xüsusilə diqqətə çatdırılıb.

Reportajda yerli könüllülərin əməyindən də ətraflı bəhs olunub.

* * *



Çin idmansevərlərinin də böyük maraqla izlədiyi "Formula-1" Avropa Qran-prisi Bakıda uğurla təşkil olunub. Bu yarış idman aləminin diqqətini paytaxt Bakıya yönəltməklə daha təqdimatı baxımından gözəl fürsət oldu. Bununla yanaşı, "Formula-1" yarışı vasitəsilə bütün dünya Şərq və Qərb koloritlərini özündə cəmləşdirən Azərbaycan paytaxtının ənənəvi və müasir memarlığına şahid oldu. Çinin kütləvi informasiya vasitələri də "Formula-1" Avropa Qran-prisi ilk dəfə keçirən Azərbaycanın idman tədbirlərinin yüksək səviyyədə təşkilatçısı olmaqla yanaşı, son illər dünyada öz inkişafı ilə diqqəti cəlb etdiyini xüsusi vurğulayır.

Bu ölkənin rəsmi xəbər agentliyi Sinxua ilə yanaşı, nüfuzlu idman qəzetləri və portallarından www.hinews.cn, www.sports.sina.com.cn, www.sports.163.com, www.f1.sports.sohu.com və digər kütləvi informasiya vasitələri Bakı trekinin özünəməxsusluğundan, gərgin keçən mübarizədə "Mercedes"in pilotu Niko Rosberqin qələbəsindən söz açıb. Qeyd olunub ki, Bakı Qran-prisində trekin uzunluğu 6 kilometrdir. Pilotlar 20 çətin döngəsi olan trekdə 51 dövrə vurublar. Ən sürətli yarışlar kateqoriyasına daxil olan Bakı mərhələsində maksimum sürət saatda 364 kilometr olub.

Çin mətbuatı yazır ki, almaniyalı Herman Tilke tərəfindən layihələndirilən Bakı treki yarışı tribunadan və televiziyadan izləyənlərin şəhərin memarlıq abidələrini görə bilmələrinə imkan yaradıb. "Formula-1" Avropa Qran-prisi və Bakı haqqında fotosessiya ilə zəngin olan xəbərlərdə qeyd olunur ki, növbəti illərdə də Bakıda keçiriləcək bu yarış Azərbaycana turist axınının artmasına da müsbət təsir göstərəcək.

* * *




Perunun nüfuzlu "El Peruano" qəzetində "Formula-1 Azərbaycanda" sərlövhəli məqalə dərc edilib. Bu barədə AZƏRTAC-a Azərbaycanın Perudakı diplomatik nümayəndəliyindən məlumat verilib.

Məqalədə Şərqlə Qərbin qovuşuğunda yerləşən, çoxəsrlik ənənələri, təbii sərvətləri, özünəməxsus tarixi abidələri və zəngin mətbəxi olan müasir Azərbaycan haqqında ətraflı məlumat verilir. Azərbaycan xalqının qonaqpərvərliyindən və ölkəmizdə keçirilən müxtəlif beynəlxalq tədbirlərə dünyanın hər yerindən çoxsaylı qonaqların gəlməsindən söz açılır. Dünyanın ən gözəl şəhərlərindən biri olan Bakıda "Eurovision" müsabiqəsinin və I Avropa Oyunlarının keçirildiyi oxucuların diqqətinə çatdırılır.

Məqalədə Azərbaycanın tarixində Bakıda ilk dəfə "Formula-1" Avropa Qran-pri yarışının keçirilməsindən bəhs edilir. Şəhərin gözəl yerləri, o cümlədən qədim İçərişəhərdən söhbət açılır, onun Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edildiyi bildirilir, geniş prospektlər, tarixi və müasir binalar, füsunkar Dənizkənarı park və "Formula-1" pilotlarının yarışdıqları yollar təsvir edilir. Bildirilir ki, yarış halqası 6 kilometrdir. Uzunluğuna görə bu, Belçikadakı Spa trekindən sonra ikinci, "Formula-1" təqvimində ən uzun küçə yarışıdır.

* * *

## GULF NEWS

Birləşmiş Ərəb Əmirliklərinin "Gulf News" qəzetində "Formula-1" Avropa Qran-pri yarışı barədə məqalələr dərc olunub.

Azərbaycanın Dubaydakı baş konsulluğunun təşəbbüsü ilə dərc edilmiş məqalələrdə "Formula-1" Avropa Qran-prisi haqqında ətraflı məlumat verilir. Məqalələrdə Qran-prinin ulduz elçisi Fernando Alonsonun Azərbaycandakı azarkeşləri ilə görüşdüyü, ölkə mədəniyyəti ilə tanış olmaq üçün şəhərdə gəzintiyə çıxdığı qeyd edilir. Ulduz elçinin "Sehrli ilmələr" qalereyasında və Heydər Əliyev Mərkəzində olduğu, "Dalğa Plaza"da azarkeşləri ilə görüşdüyü, Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən ona təqdim edilmiş dağ velosipedi ilə Su İdmanı Sarayınadək qısa səfərdə iştirak etdiyi diqqətə çatdırılır.

Yazılarda F.Alonsonun təəssüratlarına dair aşağıdakı fikirləri yer alıb: "Yenidən Bakıda olmaq möhtəşəm hissdir. Son səfərimdən bəri burada baş verən dəyişikliklər valehedicidir. Trek olduqca gözəl görünür. "Sehrli ilmələr" qalereyasını və Heydər Əliyev Mərkəzini ziyarət edərkən mən Azərbaycanın zəngin mədəniyyəti ilə tanış oldum. Velosipedlə şəhərdə gəzintim məndə gözəl təəssüratlar yaratdı".

* * *




Rumıniyanın nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycanda keçirilən "Formula-1" Avropa Qran-prisini böyük uğur hesab edir. Yazılarda Azərbaycanın tarixində Bakıda ilk dəfə "Formula-1" Avropa Qran-prisinin keçirilməsindən bəhs edilir, iştirakçıların müsahibələri, pilotların mübarizə apardığı Bakı trekindən ətraflı bəhs olunur.

"Automarket", "Autostiri", "Oricesport", "Pitstop" onlayn avtoidman xəbər portalları, "Agerpres" milli xəbər agentliyi, "Romania Libera" qəzeti, "DİGİ sport" televiziya kanalı yarış haqqında operativ məlumatlar yayıb. Yazılarda oxucular qalib idmançılar barədə məlumatlandırılıb, yarışın yüksək səviyyədə keçirildiyi vurğulanıb.

AZƏRTAC